

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 sentyabr 2024-cü il №73 (2884) https://mod.gov.az Qiymәti 30 qəpik

## Prezident İlham Əliyev 27 Sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 27 Sentyabr - Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda “Şəhidlərimizə ehtiramla” sözləri yazılıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva 27 Sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib




Birinci vitse-prezident Mehriban Əliyeva 27 Sentyabr - Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Vətən uğrunda həlak olmuş qəhrəmanlarımızın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır! Allah bütün şəhidlərimizə rəhmət eləsin!”.

# Prezident İlham Əliyev Zəfər parkında olub



***Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda inşası davam etdirilən Zəfər parkında olub.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı parkın girişində xatirə daşının önünə gül dəstəsi qoyub.

Qeyd edək ki, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış Vətən müharibəsinin başlamasından dörd il ötür. Xalqımız Azərbaycanın ərazi bütövlüyü, Qarabağın azadlığı naminə canından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla yad edir. Bakının 8 Noyabr prospektində inşası davam edən Zəfər parkı da bu ehtiramın təcəssümüdür.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyevə çoxməqsədli JF-17C təyyarələri təqdim olunub

***Sentyabrın 25-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə Pakistan Aviasiya Kompleksi və Chengdu Çin Aviasiya Korporasiyasının birgə layihəsi olaraq hazırlanmış müasir, yüngülçəkili, istənilən hava şəraitinə uyğun, gündüz və gecə rejimli çoxməqsədli JF-17C (Block-III) təyyarələri təqdim olunub.***



AZƏRTAC xəbər verir ki, bu təyyarələr artıq Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalına daxil edilib.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verib.

**(Ardı 2-ci səhifədə)**

## “ADEX-2024” sərgisində Azərbaycan istehsalı olan ağır pulemyot nümayiş etdirilib

Azərbaycanın istehsalı olan AH 12,7 millimetrlik ağır pulemyot "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində nümayiş etdirilib.

Bununla bağlı AZƏRTAC-a sərgi zamanı "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşları məlumat veriblər.

Bildirilib ki, AH 12,7 millimetrlik ağır pulemyot 12,7x108 millimetr çaplı güllələrlə təchiz olunub və hücum taborları üçün aşağıdan uçan hava hədəflərini, zirehli texnikanı, atəş nöqtələrini və düşmənin şəxsi heyətini məhv etmək məqsədilə yerli mühəndislər tərəfindən dizayn edilib.

Onun texniki xüsusiyyətləri kalibri 12,7x108 millimetr, görmə məsafəsi (yer hədəfləri üçün) 2000 metr, atəş sürəti (texniki), 540-600 güllə/dəqiqə, lülədən çıxma sürəti, 820±40 metr/saniyə, pulemyot boş maqazinlə 21 kiloqramdır. Ümumi uzunluğu açıqlanmış qundaqla 1850 millimetr, bağlanmış qundaqla 1600 millimetrdir.



Qeyd edilib ki, silah 80 dərəcəlik bucaq altında qalxaraq aşağı məsafədən uçan hədəfləri, digər zirehli iri texnikaları da vurma qabiliyyətinə malikdir.

# Prezident İlham Əliyev Zəfər parkında olub



(Əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamla inşası davam etdirilən layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində Zəfər muzeyi də yaradılır. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad




olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.





# Prezident İlham Əliyevə çoxməqsədli JF-17C təyyarələri təqdim olunub

(Əvvəli 1-ci səhifədə)

Azərbaycanın müdafiə naziri və Pakistan Aviasiya Kompleksinin sədri vitse-marşal Hakim Raza dövlətimizin başçısına təyyarələrin taktiki-texniki xüsusiyyətləri, istismar qaydaları və digər göstəriciləri barədə məlumat veriblər.

Bildirilib ki, JF-17C (Block-III) birmühərrikli çoxməqsədli döyüş təyyarəsidir.

Təyyarə hava-hava və hava-yer döyüş qabiliyyətinə, eləcə də orta və aşağı hündürlüklərdə yüksək döyüş manevrinə malikdir, effektiv atəş gücünə görə seçilir.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda ordu quruculuğu geniş vüsət alıb. Xüsusilə Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub, Silahlı Qüvvələrimizin müasir dövrün çağırışları əsasında komplektləşdirilməsi işləri uğurla davam etdirilir. Dövlətimizin başçısının tapşırığı ilə yeni ordu birləşmələri və qoşun növləri yaradılır, şəxsi heyətin döyüş hazırlığı yüksəldilir. Eyni zamanda, ordumuzun hərbi-texniki təchizatı məsələsi Ali Baş Komandanın xüsusi diqqət mərkəzindədir. Yeddinci çağırış Milli Məclisin ilk iclasındakı nitqində hərbi gücümüzün artırılmasının bir nömrəli vəzifə olduğunu vurğulayan Prezident İlham Əliyev deyib: "İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir".

Milli müdafiə sənayemizin inkişaf etdirilməsi, eyni zamanda, xarici ölkələrlə hərbi sahədə əməkdaşlıq, yeni müqavilələrin imzalanması da xüsusi vurğulanmalıdır. Azərbaycanın müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlıq etdiyi ölkələrdən biri də qardaş Pakistandır. Prezident İlham Əliyevin bu ilin iyulunda Pakistana dövlət səfəri iki ölkə arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinə yeni təkan verib. Azərbaycan və Pakistan beynəlxalq platformalarda daim bir-birinə qarşılıqlı dəstək göstərir və həmrəylik nümayiş etdirirlər.









## "Baykar" şirkətinin "Kemankeş" və "Kemankeş 2" məhsulları "ADEX-2024" sərgisində nümayiş etdirilib




Türkiyənin "Baykar" şirkətinə məxsus "Kemankeş" Azərbaycanda "ADEX-24" sərgisində nümayiş etdirilib.

Bununla bağlı şirkətin nümayəndələri AZƏRTAC-a məlumat veriblər.

Bildirilib ki, "Kemankeş" qanadlı gəzən sursat strateji hədəflərə qarşı əməliyyatlar üçün "Baykar" şirkəti tərəfindən milli və orijinal şəkildə hazırlanıb. "Kemankeş"in adı tarixdə ən çətin şəraitdə belə hədəflərini tam dəqiqliklə vuran türk oxçularından qaynaqlanır. "Baykar" tərəfindən hazırlanmış "Bayraktar Akıncı", "Bayraktar TB2" və "Bayraktar TB3" pilotsuz uçuş aparatları "Kemankeş" ilə təchiz oluna bilər.

Məlumat verilib ki, bu qanadlı gəzən sursat süni intellekt dəstəkli avtopilot sistemi ilə avtonom fəaliyyət göstərir, 1 saatlıq uçuş müddətinə malikdir və reaktiv mühərriki onu düşmənin arxasındakı kritik hədəflərə qarşı daha effektiv edir. Süni intellekt dəstəkli optik yönləndirmə sistemi ən çətin şəraitdə belə hədəfləri tanıma və dəqiqliklə vurma qabiliyyəti təmin edir.




"Baykar" şirkətinin "Kemankeş 2" adlı digər məhsulu isə çoxfunksiyalıdır. Bu sursat həm təkbaşına, həm də pikap kimi nəqliyyat vasitələri üzərindən istifadə edilə bilir. "Kemankeş 2" əsasən hərbi məqsədlər üçün nəzərdə tutulub və onun əsas funksiyaları sursat daşıma və kəşfiyyat xarakterlidir. Bu məhsul döyüş meydanında səmərəli əməliyyat aparmaq üçün nəzərdə tutulmuş yüksək texnologiyalı bir vasitədir. Eyni zamanda, uzaq məsafələrə yüksək dəqiqliklə məlumat ötürmə və hədəf vurma qabiliyyətinə malikdir, bu da onun hərbi əməliyyatlarda effektivliyini artırır.

# Müdafiə Nazirliyinin rəhbərliyi Ulu Öndərin və şəhidlərimizin məzarlarını ziyarət edib





*Sentyabrın 27-də - Anım Günündə Müdafiə Nazirliyinin rəhbər heyəti, Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu, o cümlədən Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin məzarlarını ziyarət edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Fəxri xiyabanda Ümummilli Liderin abidəsi önünə qızılgül dəstələri qoyulub, xatirəsi dərin hörmətlə yad edilib.

Nazirliyin rəhbər heyəti görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib, üzərinə tər qızılgüllər düzərək ehtiram nümayiş etdirib.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin məzarlarına və "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri düzülüb.

Daha sonra İkinci Şəhidlər xiyabanına gələn Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyət Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin məzarları üzərinə qızılgül dəstələri qoyub, ruhlarını dərin hörmət və ehtiramla anıb.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov nazirliyin digər rəhbər heyəti ilə birgə şəhid ailələri və yaxınları ilə görüşərək onların qayğıları ilə maraqlanıb.

Şəhidlərimizin ailə üzvləri ölkə rəhbərliyi tərəfindən onlara göstərilən diqqət və qayğıdan razılıqlarını bildiriblər.

Saat 12:00-da İkinci Şəhidlər xiyabanında Müdafiə Nazirliyinin rəhbərliyi digər hərbi qulluqçular və şəhid ailələri ilə birlikdə şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib.

# Müdafiə Nazirliyinin rəhbər heyəti Anım Günündə Zəfər parkında olub






Müdafiə Nazirliyi xəbər verir ki, sentyabrın 27-də - Anım Günündə Müdafiə Nazirliyinin rəhbər heyəti və Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin bir qrup kursantı Bakıda inşası davam etdirilən Zəfər parkında olub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və şəxsi heyət parkın girişindəki xatirə daşının üzərinə qızıl gül dəstələri düzüb.



# 27 Sentyabr - Anım Gününə həsr olunmuş tədbir keçirildi

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində 27 Sentyabr - Anım Gününə həsr olunmuş "Qələbəyə gedən günün başlandığı gün" adlı tədbir keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin rəhbərliyi, zabit, professor-müəllim və kursant heyəti, şəhidlərin ailə üzvləri, hərbi qulluqçular, müharibə veteranları, eləcə də digər qonaqlar iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış Böyük Zəfərdən bəhs edən sənədli film nümayiş olundu.

Tədbirdə çıxış edənlər 44 günlük Vətən müharibəsinin başlanma tarixinin uzaq keçmişdən başlayan ədalətsiz tarixi prosesi dəyişən ərazi bütövlüyümüzün bərpasına, suverenliyin tam bərqərar olunmasına və torpaqlarımıza əsl sahiblərinin əbədi qaytarılmasına yol açan tarixi gün olduğunu qeyd etdilər.

Həmçinin 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlığından, vətənpərvərliyindən, igidliyindən, dövlət-ordu-xalq birliyindən, qazanılan tarixi qələbədən, eləcə də 2023-cü ilin 19-20 sentyabrında həyata keçirilən uğurlu antiterror əməliyyatı nəticəsində respublikamızın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunmasından danışdılar. Qeyd olundu ki, bu gün işğaldan azad olunmuş ərazilərimizdə Azərbaycanın üçrəngli bayrağı əzəmətlə dalğalanır.



Bildirildi ki, ölkəmizin suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında igidlik və şücaət nümunələri göstərərək canlarından keçən şəhidlərimizin əziz xatirəsi hörmət və ehtiramla yad edilir, onların ailələri və yaxınları, torpaqlarımızın azadlığı uğrunda sağlamlığını itirən döyüşçülərimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə əhatə olunurlar.

Daha sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri şəhidlərimizə həsr olunmuş mahnılar, vətənpərvərliyi təbliğ edən musiqi nömrələri, marşlar ifa etdilər. Ədəbi-bədii-xoreoqrafik "Azərbaycan əsgəri" rəqsi nümayiş olundu.

Sonda Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin rəisi general-mayor Müşfiq Məmmədov şəhid ailələri ilə görüşdü, onlarla söhbət edərək qayğıları ilə maraqlandı.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan-Serbiya hərbi-texniki əlaqələri müzakirə edilib



Sentyabrın 25-də Bakıda təşkil olunmuş "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Serbiya Respublikasının müdafiə nazirinin maddi resurslar üzrə köməkçisi cənab Nenad Miloradoviç ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Serbiyanın "Yugoimport SDPR" dövlət şirkətinə məxsus stenddə nümayiş olunan silah və texnika nümunələrinə baxış keçirilib.

Daha sonra stenddə baş tutan görüşdə Azərbaycan ilə Serbiya arasında strateji tərəfdaşlıq zəminində qurulan əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən nazir birgə hərbi əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə hərbi-texniki sahədə əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də digər məsələlər müzakirə olunub.

## Azərbaycan-Belarus hərbi əməkdaşlığına dair müzakirələr aparılıb



Sentyabrın 25-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində ölkəmizdə səfərdə olan Belarus Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - müdafiə nazirinin birinci müavini general-mayor Pavel Muraveyko ilə görüş keçirib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə Azərbaycanla Belarus arasında hərbi sahədə ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi qeyd olunub, mövcud əlaqələrin genişləndirilməsi müzakirə edilib.

Tərəflər, həmçinin regional təhlükəsizlik və maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi apardılar.

Daha sonra general-polkovnik Zakir Həsənov Belarus Respublikasının Dövlət Hərbi Sənaye Komitəsinin sədri Dmitriy Pantus ilə görüşüb.

Görüşdə hərbi-texniki əməkdaşlığa dair maraq doğuran bir sıra məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

## Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib



Sentyabrın 25-də müdafiə naziri general-polkovnik Zakir Həsənov Bakı şəhərində keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində ölkəmizdə səfərdə olan Pakistanın Strateji Planlar Departamentinin Baş Direktoru general-leytenant Yusuf Camalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə naziri Zakir Həsənov Azərbaycan-Pakistan arasında bir çox sahələrdə olduğu kimi, hərbi-texniki sahədə də əlaqələrimizin xalqlarımızın maraqlarına xidmət etdiyini qeyd edib, eləcə də qarşılıqlı səfərlərin və müxtəlif formatda görüşlərin keçirilməsinin ölkələrimiz arasında yüksək səviyyəli əməkdaşlığın bariz nümunəsi olduğunu vurğulayıb.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə dostluq və qardaşlıq münasibətləri üzərində qurulan Azərbaycan-Pakistan hərbi əməkdaşlığının perspektiv imkanlarından danışılıb, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Azərbaycan-Qətər hərbi-texniki əməkdaşlığının perspektivləri müzakirə olunub



Sentyabrın 25-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Bakı şəhərində keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Qətərin "Barzan Holdings" müdafiə və təhlükəsizlik şirkətinin icraçı direktoru Abdullah Əl-Xater ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə Azərbaycanla Qətər arasında hərbi əməkdaşlığın yeni perspektiv və imkanları müzakirə olunub, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Azərbaycan-Somali hərbi əməkdaşlığına dair müzakirələr aparılıb



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Bakı şəhərində keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Somali Federativ Respublikasının müdafiə naziri cənab Abdulkadir Məhəmməd Nur ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə ölkələrimiz arasında bütün istiqamətlərdə, xüsusilə də hərbi sahədə əməkdaşlığın geniş imkan və perspektivlərinin olduğu qeyd edilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Müdafiə Nazirliyi ilə "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" QSC arasında Anlaşma Memorandumu imzalanıb



"ADEX-2024" və "Securex Caspian" sərgiləri çərçivəsində sentyabrın 26-da Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti arasında birgə fəaliyyətlərin həyata keçirilməsi və qarşılıqlı əməkdaşlığın qurulmasına dair Anlaşma Memorandumu imzalanıb.

Müdafiə Nazirliyi xəbər verir ki, memorandum qurumlar arasında öz səlahiyyətləri daxilində fəaliyyət sahələrinə uyğun olaraq qarşılıqlı faydalı, uzunmüddətli, səmərəli əlaqələrin qurulması və inkişafı üçün əməkdaşlıq etmək, həmçinin bu istiqamətdə koordinasiyalı fəaliyyətlərin təşkili məqsədi daşıyır.

## Azərbaycan və Rusiya arasında hərbi-texniki əməkdaşlıq perspektivləri müzakirə edilib



Bakı Ekspo Mərkəzində "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsinə dair bir sıra görüşlər keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, sentyabrın 25-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının Hərbi-texniki əməkdaşlıq üzrə federal xidmətinin direktoru Dmitriy Şuqayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Tərəflər regionda sülhün və təhlükəsizliyin təmin olunmasında hərbi-texniki sahədə əməkdaşlığın rolu, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.



Görüşdən sonra beynəlxalq sərgidə Rusiyanın hərbi sənaye şirkətlərinə məxsus stendlərə baxış keçirilib, nümayiş etdirilən silah, texnika, aviasiya və uçuş vasitələri ilə bağlı Azərbaycan və Rusiya nümayəndə heyətinə ətraflı məlumat verilib.

# Müdafiə naziri sərgidə nümayiş etdirilən hərbi silah və texnika nümunələri ilə tanış olub








Sentyabrın 25-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və Nazirliyin digər rəhbər heyəti Bakı Ekspo Mərkəzində keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində nümayiş etdirilən stendlərlə tanış olub.

Müdafiə Nazirliyi xəbər verir ki, dünyanın 40-a yaxın ölkəsindən 218-dən artıq tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlərin iştirak etdiyi sərgidə təqdim edilən silah, texnika, aviasiya və uçuş vasitələri ilə bağlı müdafiə nazirinə ətraflı məlumat verilib.

Sərgi çərçivəsində, həmçinin general-polkovnik Zakir Həsənov Pakistan Aviasiya Kompleksinin sədri vitse-marşal Hakim Raza ilə görüşüb.

Görüşdə dostluq və qardaşlıq münasibətləri üzərində qurulan Azərbaycan-Pakistan hərbi əməkdaşlığının perspektiv imkanlarından danışılıb, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Milli Müdafiə Universitetinə məxsus stend maraqla izlənilib




*Müdafiə naziri general-polkovnik Zakir Həsənov Bakı Ekspo Mərkəzində keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində Milli Müdafiə Universitetinə (MMU) və ölkəmizin digər təhsil müəssisələrinə məxsus stendlərlə tanış olub.*

Müdafiə nazirinə məlumat verilib ki, MMU-nun Heydər Əliyev adına Hərbi İnstitutunun komandası Türkiyə Respublikasında keçirilən "TEKNOFEST-2024" texnologiya müsabiqəsinin seçim turlarından müvəffəqiyyətlə keçərək final mərhələsinə yüksəlib. Komandamız müsabiqədə "Toratan dron ZN-44" layihəsi ilə iştirak edib.

Müdafiə Nazirliyi xəbər verir ki, MMU-nun stendində, həmçinin 2022-ci ildə Bakıda keçirilən "Texnofest Azərbaycan" Aerokosmik və Texnologiya festivalında "Pilotsuz Uçuş Aparatları" müsabiqəsinin "B" kateqoriyası üzrə 3-cü yerə layiq görülən Heydər Əliyev adına Hərbi İnstitut kursantlarının hazırladığı "Xilaskar" pilotsuz uçuş aparatı da nümayiş olunub.

# Müdafiə Nazirliyi və Çinin dövlət şirkətinin rəhbərliyi arasında görüş keçirilib



Müdafiə Nazirliyinin rəhbərliyi Bakıda təşkil edilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin sonuncu günündə də Bakı Ekspo Mərkəzini ziyarət edib.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov "Dəqiq Avadanlıqların İdxalı və İxracı üzrə Çin Milli Korporasiyası"nın ("CPMIEC") rəhbər heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə birgə hərbi-texniki əməkdaşlıq, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Hərbi Prokurorluqda milli prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümünə həsr olunmuş mərasim keçirilib

Sentyabrın 26-da Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mərkəzi aparatında Respublika Hərbi Prokurorluğunun, Bakı Hərbi Prokurorluğunun əməkdaşlarının və prokurorluğun veteranlarının iştirakı ilə milli prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.

Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, mərasim iştirakçıları əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Azərbaycan xalqının Ümummilli Liderinin büstü önünə gül dəstələri düzərək nəhəng tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsinə dərin ehtiramlarını ifadə ediblər.

Tədbir iştirakçıları ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla anıb, döyüşlərdə sağlamlığını itirənlərə şəfa diləyiblər.

Azərbaycan Respublikası baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev prokurorluğun veteranlarını, bütün prokurorluq əməkdaşlarını, o cümlədən mərasim iştirakçılarını 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə təbrik edərək onlara xoş arzularını çatdırıb.





Xanlar Vəliyev bildirib ki, Azərbaycan prokurorluq orqanları 80 il ərzində dövlətin etibarlı sütunlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsi ilə əlaqədar dövlət səviyyəsində heç bir təşəbbüs göstərilməyib, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməyib. Məhz Ulu Öndər Heydər Əliyevin 1998-ci il iyulun 17-də imzaladığı Sərəncamla 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı gününün təsis edilməsi tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları arasında xüsusi yeri olan prokurorluğa dövlət səviyyəsində göstərilən qayğının ifadəsi və onun roluna rəsmi münasibətin təzahürü olub.

Hərbi prokuror Xanlar Vəliyev Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini dövrün tələblərinə uyğun yeni müstəvidə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan və görülən müstəsna işlərdən, dövlətimizin daha da qüdrətlənməsindən, Vətən müharibəsində qazanılan möhtəşəm tarixi Qələbədən, dünyada analoqu olmayan uğurlu antiterror əməliyyatlarından, xalqımızın maddi və sosial rifah halının davamlı yaxşılaşdırılmasından bəhs edib. Bildirilib ki, əldə olunan uğurlar müdrik rəhbər, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dühası, sarsılmaz qətiyyəti, yorulmaz fəaliyyəti, xalqımızın əzmkarlığı və mübarizliyi, sarsılmaz xalq-iqtidar birliyi sayəsində mümkün olub.

Xanlar Vəliyev vurğulayıb ki, ölkəmizin hərtərəfli inkişafına və qazanılan ardıcıl uğurlara xalqına və dövlətinə sədaqəti, milli-mənəvi dəyərlərə sadiqliyi, insanpərvərliyi, xeyirxah əməlləri və digər məziyyətləri ilə bütün dünya qadınlarına örnək olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti misilsiz töhfələr verir.

Prokurorluğa, o cümlədən Hərbi Prokurorluğa dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan bəhs edən ədliyyə general-leytenantı Xanlar Vəliyev bunun işin səmərəliliyini şərtləndirdiyini qeyd edib.

Sonda xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının bir qisminə Hərbi prokuror tərəfindən təltiflər, prokurorluğun bir qrup veteranlarına isə hədiyyələr təqdim olunub.

Hərbi prokuror Xanlar Vəliyev tədbirə yekun vuraraq, Hərbi Prokurorluq orqanları əməkdaşlarının Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə görülən böyük işlərdə və həyata keçirilən məhkəmə-hüquq islahatlarında yaxından iştirak edəcəklərini, qanunçuluğun, dövlətçiliyin, ictimai-siyasi sabitliyin qorunması, qanunun aliliyinin təmin edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklərini, cinayətkarlığa eləcə də dövlətimizin qüdrətlənməsinə və milli maraqlara xələl gətirə biləcək bütün hallara qarşı barışmaz mövqe tutaraq, üzərlərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəklərini bildirib.

# Tarixi Zəfərin başlanğıcı və tarixi ehtiram günü

***Dörd il tarix üçün böyük müddət deyil. Dövlətə, dövlətçiliyə aid olan hadisələr (tarixi hadisələr!) üçün müddət amili olmur. Belə hadisələr xalqın tarixi kimi yaşadılır, zaman keçdikcə onu dünyəvi dövlətlər də tarixə görk kimi dəyərləndirir. Belə tarixlər vətənsevərliyin yolgöstərəninə dönür. İkinci Qarabağ müharibəsi - Vətən müharibəsi kimi...***

Anam deyərdi: 1941-ci il iyunun 22-nin səhərində dili kəlmə tutanların hamısı göynəyə-göynəyə, kəlmələri dodaqlarında köz ola-ola üzü naməlumluğa haraylayıb: Müharibə başladı!.. Qəhər hayları olub bu haraylar...

Dünyada heç bir xalq öz dövləti üçün müharibə arzulamayıb. Azərbaycanımızda belə deyildi, xalq işğaldan qurtuluş döyüşləri üçün müharibə istəyirdi, Ali Baş Komandanın döyüş əmri ilə ədalətli müharibənin başlamasını arzulayırdı. 2020-ci il sentyabrın 27-si səhərində dili kəlmə kəsənlərin harayları yerləri göylərə dikəltdi: Müharibə başladı! Bu haraylar işğaldan qurtuluşa haray çağırışıydı, heysiyyətiydi, tarixi öz axarına qaytarmaq qətiyyətiydi...

İkinci Qarabağ müharibəsi ərəfəsində ordu quruculuğuna müharibəaparma baxımından ən yeni hərbi biliklər, hərbi texnoloji yeniliklər yüksək səviyyədə tətbiq edilirdi. Ordu quruculuğunda aparılan genişmiqyaslı islahatlar, ordunun ən müasir silahlarla, texnoloji baxımdan yeni döyüş texnikaları və pilotsuz uçuş aparatları ilə təchiz edilməsi şəxsi heyətin mənəvi-psixoloji hazırlığını milli-mənəvi dəyərlər əsasında daha yüksək səviyyədə formalaşdırmışdı.

Bu müharibə azərbaycançılığın ermənilik lə müharibəsiydi, bu müharibə xalqın müharibəsiydi; İkinci Qarabağ müharibəsi sülh danışıqlarından yayınan Ermənistanın yeni ərazilər işğal etməyə niyyətli olduğuna görə, bu niyyəti üçün müxtəlif miqyaslı təxribatlar törətmək istədiyinə görə 2020-ci il sentyabrın 27-də başladı - Ali Baş Komandan düşmənin təxribatının qarşısını alan ordu hissələrimizə, ümumən ordumuza əks-hücum əmri verdi. Bu əmr İkinci Qarabağ müharibəsinin başlanğıc əmri oldu. Tarixi və hərbi şərait bu əməliyyatın strateji davamını, mahiyyətinin dövlətçiliyin tələblərinə uyğun dəyişdirilməsini, davam etdiriləcək əməliyyata daha çox hərbi qüvvələrin cəlb olunmasını zəruriləşdirmişdi. Bu amillər hərbi strategiyanın tələbləri səviyyəsində tətbiq edilməklə əks-hücum əməliyyatının müharibə (ədalətli müharibə) kimi davam etdirməyi tarixi (və bəşəri!) missiyaya çevirdi. Sentyabrın 30-da Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında müalicə olunan yaralı hərbi qulluqçularla görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev əks-hücum əmrinin döyüşlərini "Vətən uğrunda gedən döyüşlər" kimi səciyyələndirdi, oktyabrın 26-da xalqa müraciətində bu müharibəni "Vətən müharibəsi" adlandırdı - İkinci Qarabağ müharibəsi Vətən müharibəsi kimi tanındı. Bu adlandırma ordu quruculuğunun yeni mərhələsini müəyyənləşdirdi. Vətən müharibəsi ordunun döyüşə-döyüşə davam edən yeni inkişaf mərhələsi oldu...

Minlərlə tələbə, çağırışçı, Birinci Qarabağ müharibəsinin iştirakçısı döyüşlərə getmək istədi. Ehtiyac olmadığına görə aparmadılar. Hamısının döyüş əzmi, qələbə ruhu döyüşçü oldu...

Əli silah tutanlar döyüşlərə can atırdı, döyüşlərə can atanların ruhu döyüşənlərin sırasındaydı. Anaların dolaşıq yuxularını güllələr qanadırdı. Yeniyetmələrin yollar yoran xəyallarında güllələr didişirdi, ataların düşüncələrində mərmilər partlayırdı. Şəhidlərin sinəsi yaralanan torpaqların sarğısı olurdu. Ot basmış yollara iz düşürdü, iz cığıra dönürdü, cığırlar döyüşə aparırdı, döyüşlər - qələbəyə.

Müharibənin ilk günündə Azərbaycan Ordusunun hissələri düşmənin mühəndis-istehkam qurğularını, sədlərini darmadağın etdi, döyüşürdü - irəliləyirdi, irəliləyirdi - döyüşürdü. İlkin qələbələr qazanırdı. Füzulinin Qaraxanbəyli, Qərvənd, Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayılın Böyük Mərcanlı, Nizgar kəndləri, Ağdərə və Murovdağ istiqamətində strateji yüksəkliklər işğaldan azad edildi. Bu qələbələr Böyük Qələbənin başlanğıcı oldu. Azərbaycan əsgəri Vətənin adından döyüşürdü, şəhidləri də sıralarında bilib döyüşürdü. Ruhu döyüşənlərin sırasında olanlar da mahiyyətinə görə səngərlərdəydilər, döyüşənlərin döyüşçü yoldaşlarıydılar. Azərbaycan əsgəri hər döyüşü son döyüş bilib döyüşürdü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsində xalqa müraciətində demişdi: "Bizim davamız ədalətli davadır və əminəm ki, bu müharibədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək".

Azərbaycan əsgərinin döyüşləri şəhidlikdən keçirdi...

İki qardaş vardı: Nazir və Tacir Allahverdiyevlər. Əkiz qardaşıydılar. 19 yaşları vardı. Hərbi xidmətə eyni gündə getmişdilər. Əsgəriydilər. Eyni hərbi hissədə xidmət edirdilər. Onlar da torpaqlarımızın işğaldan azad edilməsi üçün müharibə arzulayırdılar. Onlar da döyüşmək, işğalı sonlandıracaq döyüşçülərin sırasında olmaq istəyirdilər.

İkinci Qarabağ müharibəsində Nazir də döyüşürdü, Tacir də. Nazirin də, Tacirin də düşüncələrində ancaq döyüş vardı, qələbə vardı. Oktyabrın sonlarında Füzuli istiqamətində döyüşürdülər. Son döyüşdə Nazir ayağından, Tacir qolundan yaralanmışdı. Birinin yaralanmasından o birinin xəbəri olmamışdı...

Döyüş öyrədəcəkdi
Çovurtma güllələrə
Sevinc xeyli yaxındı,
Yoxsa ki, kədər yaxın?!.
Nazir Tacirə, Tacir Nazirə
Bir döyüş qədər uzaq,
Şəhidlik qədər yaxın...

Hərdən əsən, hərdən kəsən yellər ağacların budaqlarında duruş gətirə bilmirdi. Nazir sağ cinahda döyüşürdü, Tacir sol cinahda. Sağda döyüş gərginləşəndə Tacirin ürəyi qanayırdı, solda döyüş gərginləşəndə Nazirin. Döyüşə-döyüşə düşməni sıxışdırırdılar. Qələbə üçün döyüşürdülər. Döyüş bitincə yenə qolları bir-birinin kürəyində çarpazlaşacaqdı...

Nazirin də, Tacirin də düşüncələrində ancaq döyüş vardı, qələbə vardı. Snayper gülləsi Nazirin ürəyinin yaxınlığına dəymişdi. Qanı dayandırmaq mümkün olmurdu...

Nazir son nəfəsində döyüşçü yoldaşlarına "Tacirə bildirməyin..." demişdi...

Tacir döyüşürdü... Bir nəfəs dərimi vaxt ötüşməmiş qarşıdan bir erməni dikəldi. Sonra biri, daha sonra biri. Dikələnlər sağa-sola daraşmağa macal tapmamış Tacirin barmağı avtomatın tətiyini sıxdı. Ermənilərin üçünü də öldürdü. Yerini dəyişmək istədi. Bu an sinəsinə snayper gülləsi dəydi...

Azərbaycan Ordusu Şuşanı işğaldan azad etdi. Bu Qələbə müharibənin sonu oldu, noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat Azərbaycanı dünyaya qalib dövlət kimi tanıtdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2020-ci il Sərəncamı ilə 27 sentyabr İkinci Qarabağ müharibəsində şəhid olanların Anım günüdür.

Yol dünənlərdən gəlib sabahlara gedir. Yeni salınan yollar bu gündən başlayır. Yollar genişləndirilir. Əhmədbəyli kəndindən başlayan, Füzuli şəhərindən, Topxana meşəsindən, Daşaltı kəndindən keçən təzə yol müharibə ərəfəsində iz olub, iz cığıra dönüb - cığır olub, İkinci Qarabağ müharibəsində cığır zərurətə - hərbi əməliyyatlara görə genişləndirilib, yol olub. İndi Zəfər yoludu, Azərbaycan əsgərinin Zəfərinin yolu olub bu yol...

Yolun ortasında iri daş vardı. Nə sağda, nə də solda yüksəklik yox idi ki, daşın ordan düşdüyünü güman edəsən. "Daşı yola ermənilər atıblar!" - düşünüblər. Dayanıblar. Qrupun rəhbəri üç-dörd addım geri çəkilib, daşın ətraflarını nəzərdən keçirib. Daşın sağında bir-birinə çataqlı iki mina görüb. Minaları zərərsizləşdiriblər, yolun davamını döyüşçü kimi qət ediblər...

Daşaltı yolu addım-addım yoxlayır, yoxlaya-yoxlaya irəliləyirdilər. Yol tamam təmizlənəndən sonra döyüşçülərimiz dağları nərdivan bilib Şuşaya çatacaqdılar. On-on beş addım getmişdilər. Çayın içindən sahillərə uzanan məftil görüb dayandılar. Minalara bağlanmış məftillər sahildə ağaclara bərkidilmişdi. Bircə toxunuşla çayın sağında-solunda düşmənin gizlədilmiş piyada əleyhinə qəlpəli minası partlayardı. Təhlükəli yerdə, gərginlik içində, minaları zərərsizləşdirdilər. Xüsusi təyinatlıların bir hissəsi Şuşaya buradan getdi. Anım günündə Zəfər yolunu açanda şəhid olanlarımızı da xatırlayırıq...

2020-ci ilin oktyabrında Gəncə şəhəri beş dəfə düşmənin raket hücumuna məruz qaldı. 27 sentyabr Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin "Azərbaycan xalqına qarşı Xocalı soyqırımından bəri şahidi olduğumuz bir soyqırımı aktı" adlandırdığı bu hücumlarda şəhid olanların da anım günüdür...

2020-ci il dekabrın 10-da Bakıda Qələbə paradı, Zəfər paradı keçirildi. Anım günündə şəhidlərimizi bu ehtiramla anmışdıq...

Paradda fəxri qonaq kimi iştirak edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan demişdi: "Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. "Qarabağ şikəstəsi"ni oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır". Vətən müharibəsindən sonra həyata keçirilən digər döyüş əməliyyatlarında, o cümlədən antiterror əməliyyatında şəhid olanlarımızı da bu ovqatla anırıq...

2023-cü il noyabrın 8-də Xankəndidə keçirilən hərbi parad ordumuzun gücü, qüdrəti kimi, İkinci Qarabağ müharibəsində şəhid olanlarımızın ruhuna gözaydınlığı kimi izlənildi...

Anım günü ehtiram günüdü, tarixi Zəfər qazananlara, bu Zəfəri Azərbaycanın ərazi bütövlüyünün tam bərpası ilə tamamlayanlara mənəvi borcödəmə günüdü...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## "Türkiyə Azərbaycan və Ermənistan arasında tezliklə sülhün əldə olunması üçün səy göstərir"

Türkiyə Azərbaycan və Ermənistan arasında sülh sazişinin əldə olunması üçün səy göstərir. Biz qonşu ölkələr arasında sabitlik və mehriban qonşuluq mühitinin tezliklə təmin olunmasının tərəfdarıyıq.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident Rəcəb Tayyib Ərdoğan Nyu-Yorkda BMT Baş Assambleyasının 79-cu sessiyasında onu müşayiət edən jurnalistlərlə söhbətində bildirib.

Türkiyə lideri deyib ki, Ermənistanın baş naziri Nikol Paşinyan Nyu-Yorkda keçirilən görüş zamanı Ankaranın Azərbaycanla sülh sazişinin tezliklə bağlanmasına töhfə verəcəyinə ümid etdiyini bildirib. "Türkiyə onsuz da bunun üçün çalışır. Ümid edirik ki, məsələləri həll etməklə və Azərbaycanla Ermənistan arasında olan çətinlikləri aradan qaldırmaqla biz yeni yola qədəm qoyacağıq", - deyə siyasətçi qeyd edib.

Türkiyə Prezidenti Azərbaycanın sülh gündəmini dəstəklədiyini vurğulayıb. "Biz Ermənistanın oxşar yanaşmasının şahidi olduq. Türkiyə isə öz tərəfindən hesab edir ki, sülh mühiti Bakı və İrəvan üçün yeni imkanlar pəncərəsi açaraq, bütün tərəflərin maraqlarına cavab verəcək", - deyə Türkiyə lideri bildirib.

Dövlət başçısı Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin müsbət yekunlaşmasının Türkiyə-Ermənistan münasibətlərinin də normallaşmasına təkan olacağına əminliyini ifadə edib.

Ərdoğan daha sonra Ankaranın BRICS və ASEAN kimi təşkilatlara ölkəsinin mümkün daxil olması mövzusunu şərh edib. Türkiyə liderinin sözlərinə görə, BRICS və ASEAN platformaları Türkiyəyə iqtisadi əməkdaşlığı gücləndirmək üçün imkanlar açır.

"Ankaranın bu cür strukturlara daxil olması NATO-dan imtina demək deyil", - deyə dövlət başçısı əmin edib və vurğulayıb ki, Ankaranın yeni beynəlxalq təşkilatlarla dialoqundan bütün region faydalanacaq.

## Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

Sentyabrın 26-sı saat 16:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Ərəvus yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ləkətağ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini iriçaplı pulemyotlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: Azərbaycan-Türkiyə qardaşlığı. Bir millət, iki dövlət

**Suallar:**

**1. Azərbaycan-Türkiyə arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır.**

**2. Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın inkişafı.**

*Türkiyə Azərbaycanın haqq işinə həmişə dəstək verən ölkələrdəndir. İstər Vətən müharibəsində, istər Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsində, istərsə də Qarabağ və Şərqi Zəngəzurda gedən quruculuq prosesində Türkiyənin mənəvi və siyasi dəstəyi həmişə hiss edilib. İşğala məruz qalmış ərazilərimizdəki hər iki beynəlxalq hava limanının açılışında, Zəngəzur dəhlizinin Azərbaycan hissəsinin təməlqoyma mərasimində Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı və eləcə də müttəfiqlik bəyannaməsinin Şuşada imzalanması da bunu təsdiq edir.*

### Azərbaycan-Türkiyə arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır

Azərbaycan və Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq əlaqələri qədim tarixə malikdir. Bu əlaqələri şərtləndirən amillər sırasında ortaq kökümüzün, dinimizin, dil birliyimizin, oxşar mədəniyyətimizin və adət-ənənələrimizin olmasıdır. Əsrlər boyu bu dövlətlər həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmiş, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müdrikcəsinə dediyi kimi "bir millət, iki dövlət" olmuşlar. Təsadüfi deyildir ki, Türkiyə dövlətinin dahi lideri Mustafa Kamal Atatürk Azərbaycanın kədərini özlərinin kədəri, sevincini isə öz sevinci hesab etmişdir. Türk dünyasının bu iki lideri öz müdrik kəlamları ilə hər iki dövlətin gələcək nəsillərinə əbədi olaraq bir mesaj qoymuşlar: "Türkiyə-Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır".

Azərbaycan Xalq Cümhuriyyətinin 28 may 1918-ci ildə müstəqilliyini elan etməsi ilə başlayan Türkiyə-Azərbaycan siyasi əlaqələri Azərbaycan dövlətinin müstəqilliyini yenidən bərpa etdikdən sonra Türkiyə dövlətinin ilk dövlət olaraq Azərbaycanın müstəqilliyini tanıması ilə bərpa olunmuşdur. İki dövlət arasında diplomatik münasibətlər 14 yanvar 1992-ci ildə qurulmuş, 1992-ci ilin avqustunda Azərbaycanın Türkiyədə səfirliyi açılmış, 1993-cü ilin yanvarında İstanbul, 2004-cü ilin aprelində isə Qars şəhərlərində Baş konsulluqları təsis edilmişdir. Eyni zamanda, Türkiyənin Bakı şəhərində səfirliyi, Naxçıvan və Gəncə şəhərlərində Baş konsulluqları fəaliyyət göstərməkdədir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu dövrdə 1992-ci ildə blokada şəraitində yaşayan qədim diyarın qardaş ölkə ilə 11 kilometrlik hissəsində, Araz çayı üzərində "Ümid" körpüsü adlandırılan keçid məntəqəsini istifadəyə verməklə iqtisadi, mədəni əlaqələrin yaradılmasını təmin etmişdi. Türkiyə müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının səylərini dəstəkləyərək hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərmişdir. Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi, elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1993-cü ildən siyasi hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə kursun yüksələn xətt üzrə inkişafını təmin etmişdir.

"Bir millət, iki dövlət" məşhur deyimini söyləyən Ulu Öndər Heydər Əliyevin yaratdığı qardaşlıq əlaqələri bu gün də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Məhz belə misilsiz fəaliyyətin nəticəsidir ki, hazırda Azərbaycan ilə Türkiyə Avrasiya kontinentinin Cənubi Qafqaz və Qara dəniz kimi strateji əhəmiyyətli regionlarının geoiqtisadi mənzərəsinin müsbətə doğru dəyişdirilməsinə nail olmaqla yanaşı, Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə də mühüm dəstək vermişlər. Belə ki, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi layihələr Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, "Yeni İpək Yolu" nəqliyyat dəhlizinin önəmli hissəsini təşkil edən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi və Avropa ilə Asiya arasında Zəngəzur dəhlizi vasitəsilə əsas tranzit xəttini yaratmaqla, regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyətə malikdir. Birgə əməkdaşlıq və təşəbbüslə inşası davam etdirilən, artıq XXI Əsrin layihəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəməri layihəsinin reallaşması, İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu, Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanması da Türkiyə-Azərbaycan arasında səmimi dostluq və faydalı tərəfdaşlığın növbəti məhsuludur.

Son 32 il ərzində Azərbaycan və Türkiyə dövlətləri arasında əlaqələr strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş, 15 sentyabr 2010-cu ildə İstanbulda Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması və 15 iyun 2021-ci ildə Şuşa şəhərində Şuşa Bəyannaməsinin imzalanması ilə iki ölkə arasındakı bütün sahələrdə əlaqələrin daha da genişlənməsi və dərinləşməsinə öz töhvəsini vermişdir. Şuşa Bəyannaməsi imzalanarkən dövlət başçısı cənab İlham Əliyev Qars müqaviləsini yada salaraq qeyd etmişdir: "...Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir.

Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlığımız, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Enerji təhlükəsizliyinin, Cənub Qaz Dəhlizinin önəmi Türkiyə, Azərbaycan və Avropa üçün göstərilir və hər bir məsələ çox böyük önəm daşıyır...".

Qarşılıqlı etibar və qardaşlığa əsaslanan çoxtərəfli əlaqələrin daha da dərinləşdirilməsi məqsədilə ölkələrimiz, BMT başda olmaqla, bütün beynəlxalq təşkilatlar çərçivəsində iki ölkənin və regionun rifahı naminə yaxından əməkdaşlıq edir.

### Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın inkişafı

Müstəqilliyimizin ilk günündən etibarən Azərbaycan Respublikasının, Qarabağ başda olmaqla, işğal və ərazi bütövlüyü probleminin yaşadığını, regional təhlükəsizlik ehtiyacını diqqətə alan qardaş Türkiyə dövləti Bakının hərbi baxımdan güclənməsinə çalışmış, bunu Türkiyənin də regionda güclənməsi olaraq görmüş və mümkün mənəvi və siyasi dəstəyi əsirgəməmişdir. İki qardaş ölkənin ordularının əməkdaşlığı yalnız Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsi baxımından deyil, eyni zamanda, bölgədə sabitlik və təhlükəsizliyin təmini, ortaq güc formalaşdırmaq yoluyla milli problemlərin həll edilməsi baxımından da mühüm əhəmiyyət kəsb etmişdir.

İki qardaş ölkə ordularının əməkdaşlığı yönümündə ilk hüquqi addım 11 avqust 1992-ci ildə imzalanan "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilənin bağlanmasıyla başlanmışdır. Türkiyə Silahlı Qüvvələrinin təhsil müəssisələrində yüzlərlə azərbaycanlı zabit təhsil alaraq Azərbaycan Ordusunun güclənməsinə öz töhfəsini vermişdir.

Azərbaycan Ordusunun zabit heyətinin ehtiyacını qarşılayan ən önəmli təhsil müəssisələrindən olan Heydər Əliyev adına Hərbi İnstitut qardaş ölkənin aktiv iştirakı və köməyi ilə NATO standartlarında təhsil verən təhsil ocağı səviyyəsinə gətirilib çatdırılmışdır. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə və digər ölkələrə göndərilir. Eyni zamanda, indiyə qədər Azərbaycan-Türkiyə Müdafiə Nazirlikləri arasında təmənnasız hərbi yardım, müdafiə sənayesi, təlim-tədris və maddi-texniki təminat sahələrində əməkdaşlıq haqqında müqavilələr imzalanmışdır. Hərbi sənayesi ilə qüvvətlənən qardaş ölkənin müxtəlif silah sistemlərinin Azərbaycanla birlikdə istehsalı da qardaşlıq ittifaqının müdafiə sənayesində də müştərək layihələr həyata keçirərək, ordularının gücünə güc qatacağının bariz nümunəsidir.

Qərblə Şərqin qovuşduğu nəqliyyat dəhlizləri, neft-qaz boru xətləri, yollar baxımından olduqca strateji bir coğrafiyada yerləşən Azərbaycan, Avroatlantik məkanın təhlükəsizliyin təmini baxımından da önəmli olduğu üçün Azərbaycan hərbçiləri NATO-nun Sülh Naminə Tərəfdaşlıq (SNT) Proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarına daxil edilmiş və bu fəaliyyətlər də Türkiyə dövləti vasitəsiylə həyata keçirilmişdir. Bu isə ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl demək idi.

2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə arasında imzalanmış tarixi Şuşa Bəyannaməsinin iki qardaş ölkənin ittifaq müqaviləsi kimi də qəbul etmək olar. Müqavilənin müddəalarının birinə görə, ölkələrdən hər hansı birinin müstəqilliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid yaxud təcavüz edildiyi təqdirdə Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil ediləcəkdir.

İki qardaş ölkənin ordularının müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, o cümlədən yerdən və havadan zərbələr endirməklə düşmən hədəflərinin məhv edilməsi tapşırıqlarını yerinə yetirməsi ilə bağlı zirehli texnika, artilleriya qurğuları, hərbi aviasiya, hava hücumundan müdafiə qüvvələrini də cəlb etməklə həyata keçirilən çoxsaylı birgə təlimlər də birlik və əməkdaşlığın önəmli istiqamətlərindən birini təşkil etməkdədir. Bu təlimlərdə qazanılan təcrübənin məntiqi nəticəsidir ki, Azərbaycan Ordusu bəşər tarixinin ən müasir müharibəsini aparmaqla, Azərbaycan Respublikasının Ermənistan silahlıları tərəfindən işğala məruz qalmış ərazilərimizi azad edərək respublikamızın ərazi bütövlüyünü təmin etdi. Azərbaycan 44 günlük Vətən müharibəsində döyüşmək bacarığını, supermüasir ordusunu, ən son hərbi texnika üzrə təlim keçmiş yeni nəsil mütəxəssislərini, mühəndislərini, zabitlərini, xüsusi təyinatlı hərbçilərini nümayiş etdirdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qeyd etdiyi kimi, "bu yeni nəsil müharibə üslubudur, hansı ki, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir".

2024-cü il ərzində Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında həm Azərbaycanda, həm də Türkiyədə müxtəlif təyinatlı birgə təlimlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəminin olduğunu, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün böyük əhəmiyyətə və faydası olduğunu bildirmişdir.

Vətən müharibəsində Azərbaycan-Türkiyə əlaqələri daha da möhkəmləndirildi. 2020-ci il dekabrın 10-da Bakıda keçirilən Zəfər paradında Azərbaycan və Türkiyə əsgərləri çiyin-çiyinə Azadlıq meydanından keçdilər. Azərbaycan xalqı küçələrə axışaraq böyük sevinc hissi ilə Zəfər paradına dəvət olunmuş Azərbaycan və Türkiyə əsgərlərini salamladı. Bu tarixi gündə Azərbaycanın bütün şəhərləri Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmişdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramının sammitindəki çıxışı zamanı "Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam" deməsi, dünyanın əksər ölkələrinin planetimizin ən böyük ədalətsizliklərdən birinə - erməni işğalına reaksiya vermədiyi dövrlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir" bəyanatı, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19 sentyabr 2023-cü ildə Qarabağda antiterror əməliyyatları öncəsi Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci iclasında çıxışında "... Tək millət, iki dövlət şüarı ilə hərəkət etdiyimiz Azərbaycanın ərazi bütövlüyünə dair atdığı addımları dəstəkləyirik" deməsi və Azərbaycana rəsmi səfəri çərçivəsində Milli Məclisdə söylədiyi nitqində "... Bu gün də Azərbaycanın yanındayıq və bütün dünya bilsin ki, daim Azərbaycanın yanında olacağıq. Necə ki, Çanaqqalada azərbaycanlı gənclər Anadolu gəncləri ilə birlikdə şəhadətə yürüyüb qələbə qazanmışdılarsa, necə ki, Nuru Paşanın aslanları 1918-ci ildə Azərbaycanın köməyinə gəlmişdilərsə, biz də bu gün və gələcəkdə bərabər olacağıq..." deməklə konkret mövqe ortaya qoyması Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığının bariz nümunəsidir.

Bir sözlə, Azərbaycan və Türkiyə xalqlarının qardaşlığı daim möhkəmlənir, əlaqələri dayanmadan inkişaf edir və hər iki ölkə regionda təhlükəsizliyin qarantına çevrilir. Bu əlaqələr strateji xarakter daşıyır, dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Bizi birləşdirən həm tarixi köklər, həm də mədəni əlaqələr bizim keçmişimiz bugünkü və gələcək siyasi maraqlarımızdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Krossvord, skanvord, çaynvord, kriptoqram

| Sual | Xanalar |
|---|---|
| 1. Yiyəlik, yönlük, yerlik - | 4 \| 3 \| 8 \| 9 \| 17 |
| 2. Məhəllə, yol - | 19 \| 1 \| 18 \| 2 |
| 3. Orman - | 21 \| 16 \| 20 \| 2 |
| 4. Xalq - | 23 \| 6 \| 7 |
| 5. Sual - | 22 \| 4 \| 15 \| 4 \| 12 |
| 6. Kişi adı - | 11 \| 10 \| 14 \| 4 \| 7 |
| 7. RF-də meşə - | 11 \| 4 \| 5 \| 17 \| 4 |
| 8. Quş - | 17 \| 4 \| 13 \| 4 \| 5 \| 9 |

| | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 12 | 1 | 11 | 1 | 7 | ■ | 10 | 13 | 10 | 14 | 8 | 4 | 14 | 9 | 7 | , | 6 | 7 | 19 | 6 | 20 | 4 | 23 | 9 |
| 7 | ■ | 4 | 18 | 4 | 14 | 9 | ■ | 16 | 8 | 21 | ■ | 15 | 2 | ■ | 11 | 2 | 14 | 12 | 6 | 5 | 2 | 3 | 6 |
| 14 | . | 10 | 22 | 4 | 8 | 9 | 17 | ■ | 5 | 4 | 20 | 3 | 4 | ■ | 3 | 16 | 5 | 6 | 8 | . | 16 | 8 | 21 |
| 3 | 2 | ■ | 4 | 13 | 9 | 8 | 3 | 4 | ■ | 15 | 2 | ■ | 11 | 2 | 14 | 12 | 6 | 5 | 2 | 3 | 2 | 3 | 6 |

| Sual | Xanalar |
|---|---|
| 1. Mulat, mərəz - | 2 \| 13 \| 12 \| 4 \| 18 |
| 2. ... Əliyev (kaman) - | 16 \| 8 \| 17 \| 4 \| 3 |
| 3. Çanaqlı heyvan - | 12 \| 11 \| 18 \| 17 \| 8 \| 14 \| 8 |
| 4. Şimal, Cənub - | 20 \| 6 \| 5 \| 19 |
| 5. Əyri - | 7 \| 9 \| 15 |
| 6. Su, duru - | 2 \| 8 \| 10 \| 13 |
| 7. Yağ - | 18 \| 8 \| 1 \| 8 |
| 8. Şənlik, tətil - | 17 \| 8 \| 10 \| 5 \| 8 \| 2 |

| | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 8 | 14 | 11 | 3 | 3 | 11 | ■ | 8 | 7 | 8 | 2 | ■ | 15 | 6 | 16 | 2 | 6 | 12 | 4 | 1 | 6 | ■ | 17 | 13 |
| 3 | ■ | 17 | 8 | 14 | 3 | 8 | 5 | , | 8 | 14 | 11 | 3 | 18 | 11 | 15 | ■ | 9 | 2 | 4 | 7 | 4 | 1 | 6 |
| . | 1 | 8 | 7 | 8 | 1 | 3 | 8 | 5 | ■ | 19 | 8 | 5 | 20 | 11 | 18 | 11 | 1 | 7 | 8 | ■ | 8 | 14 | 3 |
| 11 | 1 | 11 | 15 | 11 | ■ | 1 | 9 | 2 | 8 | 10 | 4 | 20 | ■ | 13 | 12 | 7 | 4 | 5 | 2 | 6 | 10 | 4 | 1 |

# İdman

## Azərbaycan savatçıları Dünya Kubokunda 5 qızıl medal qazanıblar



Azərbaycan savatçıları Avstriyanın Veyz şəhərində keçirilən klublararası Dünya Kubokunda 7 medal qazanıblar.

Assault növü üzrə kadetlər arasında Ağamirzə Mahmudbəyli (30 kiloqram), gənclər arasında Yasin İbrahimov (56 kiloqram), Nicat Məhəmmədli (60 kiloqram) və Əli Bəylərzadə (75 kiloqram), prokombat növü üzrə Nicat Məhəmmədli (60 kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Böyüklər arasında Tutu İsmayılova (48 kiloqram) gümüş, Həsən Əliyev (65 kiloqram) isə bürünc mükafata layiq görülüblər.

## Azərbaycanın sərbəst güləşçiləri dünya çempionatına Belarusda hazırlaşırlar




Sərbəst güləş üzrə Azərbaycan millisi Belarusda təlim-məşq toplanışındadır.

Minskdə yerləşən "Stayki" İdman Mərkəzində təşkil olunan hazırlıq prosesində məşqlər yerli komanda ilə birgə keçirilir.

Yığma ötən həftə Belarusun paytaxtında baş tutan Aleksandr Medvedin xatirə turnirində iştirak etdikdən sonra həmin məkanda toplanışa start verib. Sentyabrın 23-də başlayan hazırlıq prosesi oktyabrın 5-dək davam edəcək.

Qeyd edək ki, keçirilən toplanış oktyabrda Albaniyada təşkil ediləcək U-23 və böyüklər arasında dünya çempionatlarına hazırlıq xarakteri daşıyır.

## Azərbaycanın yunan-Roma güləşçiləri beynəlxalq turnirdə 3 medal qazanıblar



Azərbaycanın yunan-Roma güləşçiləri Rusiyanın Tümen şəhərində dünya və Avropa çempionu, olimpiya mükafatçısı Vladimir Çeboksarovun şərəfinə təşkil edilən yarışda üç medal qazanıblar.

Finala vəsiqə qazanan Eldəniz Əzizli və Ülvi Qənizadə (hər ikisi 72 kiloqram) zədə səbəbindən həlledici görüşə çıxmadıqları üçün gümüş mükafatla kifayətləniblər.

Qurban Qurbanov (82 kiloqram) isə üçüncü yeri tutub.

Qeyd edək ki, milli komandanı yarışda baş məşqçi Aleksandr Tarakanov və məşqçi Kamran Məmmədovun rəhbərliyi altında 6 güləşçi təmsil edib. Ənənəvi turnirdə Azərbaycanla yanaşı, Rusiya, Belarus, Ermənistan, Qazaxıstan və Qırğızıstan komandaları mübarizə aparıblar.

## Azərbaycanda "Xankəndi" futbol klubu yaradılıb



Azərbaycanda "Xankəndi" futbol klubu yaradılıb.

Komanda 2024-2025-ci illər mövsümündə Region Liqasında çıxış edəcək.

Klub hələlik ev oyunlarını Şamaxı Olimpiya Mərkəzində keçirəcək.

**AZƏRTAC-ın materialları əsasında**

## *Media:* Türkiyəni təhdid edən Hindistan Ermənistanı silahlandırmaqda davam edir




Türkiyə sərhədlərindən minlərlə kilometr aralıda yerləşən Hindistan ölkənin təhlükəsizliyinə təhlükə yaradaraq Ermənistana raket tədarük etməyə hazırlaşır.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin "Yeni Akit" qəzeti yazır.

Nəşr xatırladır ki, Ermənistanın 2019-cu ildə Rusiyadan aldığı "Su-30" təyyarəsi Azərbaycana qarşı 44 günlük müharibə zamanı döyüş sursatı, o cümlədən "hava-yer" tipli raketlər olmadığı üçün istifadə olunmayıb.

Qəzet "ThePrint" resursunun məlumatlarına istinadən qeyd edir: "İrəvan vəziyyətdən çıxmaq üçün Hindistanın döyüş sursatlarının, o cümlədən "Astra" tipli "hava-hava" raketlərinin tədarükü ilə bağlı Yeni Dehli ilə danışıqlara başlayıb. Onların hamısı "Su-30" təyyarələrinə inteqrasiya olunacaq. Danışıqlar ilkin mərhələdədir".

"Yeni Akit" yazır: "Ermənistan hakimiyyəti Hərbi Hava Qüvvələrini inkişaf etdirmək məqsədi daşıyır və buna görə də Hindistanla fəal dialoqu davam etdirir. İrəvan, həmçinin təyyarələrə texniki xidmət bazası təşkil etməyə və yeni hərbi pilotlar yetişdirməyə çalışır. Eyni zamanda, Hindistan Hərbi Hava Qüvvələrinin arsenalında olan "Su-30" təyyarələri ilə Ermənistandakı analoqları arasında fərqlər var və bu, məsələnin ətraflı tamamlanması prosesini tələb edir".

Ermənistanın Hindistandan almağı planlaşdırdığı döyüş sursatı siyahısına "hava-yer" tipli raketlər də daxildir. Hindistanın "BrahMos" tipli raketlərinin tədarükü planları ilə bağlı məsələ açıq olaraq qalır", - yazan nəşr Hindistanın əvvəllər Türkiyəyə qarşı təhdidlər səsləndirdiyini də xatırladır.

Qəzet vurğulayır ki, bu gün Hindistan Hərbi Hava Qüvvələrinin donanmasında 272 ədəd "Su 30 MKI" təyyarəsi var və onların bəzi komponentləri Hindistan müəssisələrinin özləri tərəfindən istehsal olunur: "Bu, Hindistana texniki xidmət və hərbi təyyarələr üçün ehtiyat hissələrin satın alınması məsələsində Rusiyadan asılılığını azaltmağa imkan verib".

Türkiyə nəşri Hindistanın Ermənistana artilleriya sistemləri, atıcı silahlar, radarlar və minaatanlar göndərməsinə də diqqət çəkir.

Məmmədov David Rəşid oğluna verilmiş MV № 089819 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Xəbərlər: hadisələr, faktlar

## Çin qitələrarası ballistik raket buraxıb



Çin Xalq Azadlıq Ordusunun (ÇXAO) raket qüvvələri Sakit okeanın açıq suları istiqamətində döyüş başlıqlı qitələrarası ballistik buraxıb.

Çinin Müdafiə Nazirliyi raketin dənizdə planlaşdırılan zonaya düşdüyünü açıqlayıb. Nazirlik sınaq buraxılışının illik təlim planına uyğun icra edildiyini, beynəlxalq hüquqa və beynəlxalq təcrübəyə uyğun olduğunu, heç bir ölkəyə və ya obyektə qarşı yönəlmədiyini bəyan edib.

## Polşalıların üçdəbiri ordunun müdafiəyə hazır olmadığını düşünür



Polşalıların yarıdan çoxu ordunun ölkənin müdafiəsinə hazır olduğuna inanır, lakin əhalinin demək olar ki, üçdəbiri bu fikirlə razı deyil.

Bu barədə məlumat IBRiS sosiologiya xidmətinin apardığı sorğunun nəticələrində öz əksini tapıb. Polşa ordusunun gücünə inananların sayı 54,6 faiz, inanmayanların sayı isə 29,6 faizdir.

Polşa Silahlı Qüvvələrinin vəziyyətini müxalifət nümayəndələri, qadınlar və 30 yaşlı sakinlər müxtəlif cür qiymətləndirib. Ölkənin 18-29 yaş arasında olan gənclərinin 63 faizi ordunun hazırlığını qənaətbəxş saymır.

Buna baxmayaraq, ekspertlər Polşa ordusunun hazırda modernizə edildiyini, həmçinin ABŞ və Cənubi Koreyadan alınan yeni silahlarla, o cümlədən tanklar, təyyarələr və artilleriya qurğuları ilə təchiz olunduğunu qeyd edirlər.

## Estoniyalı təlimatçılar Britaniyada ukraynalı hərbçilərə təlim keçəcək



Estoniya Silahlı Qüvvələrinin 30 nəfərlik təlimatçı qrupu Ukrayna hərbçilərinə təlim keçmək üçün bu həftə Böyük Britaniyaya yollanacaq.

Bu barədə Estoniya ordusunun mətbuat xidməti məlumat yayıb.

Təlimatçılar "Interflex" təlim missiyası çərçivəsində ukraynalı hərbçilərə əsas döyüş bacarıqlarını, o cümlədən silahdan istifadə qaydalarını, tibb və atış hazırlıqlarını öyrədəcək. Məşq dövrünün müddəti təxminən iki aydır.

Tallin 2024-cü ilin yanvarında Böyük Britaniyanın rəhbərliyi ilə ukraynalı hərbçilərə təlim keçən "Interflex" missiyasına qoşulub. Missiyada Estoniya ilə yanaşı, Şimali Avropa və Baltikyanı ölkələr, həmçinin Avstraliya, Yeni Zelandiya, Kanada və Kosovo iştirak edir.

**AZƏRTAC-ın materialları əsasında**

Məsul katib
mayor
Ceyhun CƏFƏRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
baş leytenant
Elvin VƏTƏNDUST

Lisenziya № 361
Sifariş № 563
Nüsxə 4650